Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

**Layihənin istiqaməti:**
**" İctimai və dövlət maraqlarının müdafiəsi"**

# İstedad və bədii təcrübənin sıx vəhdəti

## Şəmsəddin Qasımov çoxşaxəli yaradıcılığa malik şəxsiyyətlərdəndir

**Naxçıvan diyarı bir çox yaradıcı şəxsiyyətlər yetişdirmişdir. Onlardan biri də Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikasının əməkdar incəsənət xadimi Şəmsəddin Qasımovdur. Muxtar Respublikada musiqinin inkişafı istiqamətində görülən işlərin böyük nailiyyətlər qazanmasında onun xüsusi xidmətləri vardır.**

Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatı 37 illik tarixə və zəngin təcrübəyə malik, uğurla fəaliyyət göstərən və yüksək maddi-texniki imkanları olan bir qurumdur. Son dövrlər Naxçıvan bəstəkarlarının qazandığı uğurlar, Muxtar Respublikada gənc musiqiçilərin yetişməsi istiqamətində həyata keçirilən tədbirlər və yaradılan şərait mədəniyyətin, o cümlədən musiqinin inkişafına göstərilən yüksək qayğının nəticəsidir. Bu gün Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının işində böyük irəliləyişlər müşahidə olunur, naxçıvanlı bəstəkarlar müxtəlif janrlarda yazdıqları əsərlərlə Azərbaycan musiqi xəzinəsini daha da zənginləşdirirlər. Bu işlərdə əlbəttə ki, təşkilatın sədri Şəmsəddin Qasımovun rolu danılmazdır.



Şəmsəddin Qasımov 1955 -ci ildə Naxçıvan şəhərində anadan olmuşdur. O, ilk musiqi təhsilini Naxçıvan Şəhər 1 saylı Uşaq Musiqi Məktəbinin tar sinfində almış, 1971-75-ci illərdə A.Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbində təhsilini davam etdirmiş və istedadlı tarzən kimi Naxçıvana qayıdaraq Naxçıvan Şəhər Uşaq Musiqi Məktəbində müəllim işləmişdir. 1980-ci ildə Azərbaycan İncəsənət Universitetinə daxil olmuş və 1985-ci ildə universitetin Mədəni-maarif fakültəsini bitirməklə özfəaliyyət teatr kollektivinin rəhbəri ixtisasına yiyələnmişdir. 1981-ci ildə Nehrəm və Cavidabad kənd uşaq musiqi məktəblərində, sonralar Naxçıvan şəhər 1 və 2 saylı uşaq musiqi məktəblərində direktor, müəllim, dərs hissə müdiri vəzifələrində çalışmışdır.

O, 1970-ci illərdən həm də bəstəkar kimi fəaliyyətə başlamışdır. Tanınmış bəstəkar Boris Kabakovdan bəstəkarlıq dərsi almaqla bu illərdə özünün bir sıra əsərlərini bəstələmişdir.Tələbəlik illərinin məhsulu olan bir neçə mahnısı o dövrdə istedadlı müğənni Kəmalə Rəhimli tərəfindən ifa olunmuşdur.

Əsasən mahnı janrında məhsuldar çalışan Ş.Qasımov 60-dan artıq mahnının müəllifidir. M.Araz, B.Vahabzadə, H.Arif, İ.Oruc, A.Yadigar, M.Qasımzadə, Z.Vedili, A.Mirzəyev, R.Hüseynov və b. şairlərin sözlərinə yazılmış mahnılarında bəstəkar doğma Vətəni, onun gözəlliklərini, bu yurdun şəhid övladlarını, əməksevər insanları vəsf etməklə yanaşı, lirik məhəbbət mövzularına da geniş yer vermişdir.

Azərbaycanın milli qəhrəmanları - İbrahim Məmmədova həsr olunmuş "Altı bacı", Yusif Mirzəyevə həsr edilmiş "Yusifim", polis mayoru Məhərrəm Seyidova həsr edilmiş "Məhərrəm", Sədərəyin ən kiçik şəhidləri Malik və Elvin qardaşları haqqında "Malikim, Elvinim mənim", "Sədərəklilər", "Mənim Azərbaycanım", "Marş irəli", "Xocalı" kimi mahnıları müəllifin Vətənə, onun şəhidlik zirvəsinə ucalmış oğullarına həsr etdiyi musiqi nümunələridir.

Romans janrında yazdığı "Ay üzlü nigarım kimə mehman olacaqsan" (söz: N.Gəncəvinin), "Dəyişmərəm" və "Sənsiz" (söz: E.Həbibin), lirik səpkili "Unut bu sevdanı", "Nə deyim", "Unutsam dözəcəkmi?","Xatirələr", "Sənin sevgin, mənim sevgim", "İndən belə", "Dedin məhəbbət hanı?", "Anlamadın məni", "Dəyişmərəm" və s. də bəstəkarın yaradıcılığında xüsusi yer tutur. Onun instrumental əsərləri sırasına fortepiano üçün 2 pyesini, skripka və fortepiano üçün pyesini aid etmək olar.

Bəstəkarın şair-jurnalist Rövşən Hüseynovla birlikdə işlədiyi mahnıları son illərin ən uğurlu mahnılarından hesab etmək olar. Şairin sözlərinə yazılmış "Zərifə həkim", "Vətən oğlu", "3 rəngli bayraq", ulu öndər Heydər Əliyevə həsr olunmuş "Heydərim var ol", "Sən həmişə bizimləsən" kimi mahnılarına Naxçıvan TV-nin dəstəyilə kliplər də çəkilmişdir.



2000-ci ildən Azərbaycan Bəstəkarlar İttifaqının üzvü olan Şəmsəddin Qasımov bu yaradıcılıq təşkilatının işində fəal iştirak edərək, bir çox plenum, qurultay və festivallarda öz yeni əsərləri ilə çıxış edir.

Şəmsəddin Qasımovun Kamera Orkestri üçün yazdığı 3 hissəli "Naxçıvan lövhələri" əsəri təşkilatın Naxçıvanda keçirilən hesabat konsertində və Azərbaycan Bəstəkarlar İttifaqının 2007-ci ildə Bakıda keçirilən VIII qurultayında dinləyicilərə təqdim edilərək uğurla ifa olunmuşdur.

Bəstəkar xor janrında bir çox uğurlu əsərin müəllifidir. Onun xor üçün yazdığı əsərlər bu gün Muxtar Respublikanın bir çox musiqi məktəblərində, orta və ali məktəblərdə müvəffəqiyyətlə ifa edilir. Bu janrda şair Hüseyn Razinin sözlərinə yazdığı, Azərbaycanın görkəmli satirik-yazıçısı Mirzə Cəlil Məmmədquluzadəyə həsr olunmu. 3 hissədən ibarət xor və fortepiano üçün "Mirzə Cəlil" kantatası 2014-cü ildə Azərbaycan Bəstəkarlar İttifaqının 80 illik yubileyi ilə əlaqədar keçirilən musiqi festivalında ilk dəfə ifa olunmuşdur. Bəstəkar bu əsərlə Mirzə Cəlil dünyasının musiqi ilə dinləyicilərə çatdırılmasına çox gözəl nail olmuşdur.



Şəmsəddin Qasımov yaradıcılığını teatr sahəsində də uğurla davam etdirmiş və bu gün də etdirməkdədir. Hələ 70-ci illərdə fəaliyyət göstərən "Gənclik" Xalq Teatrında o, "Ezop", "Bəxtsiz cavan", "Ana", "Yollara iz düşür", "Şeyx Rəhmətulla", "Məhəbbət nişanəsi" kimi 10-a yaxın tamaşaya orijinal musiqi bəstələmişdir. Naxçıvan Dövlət Musiqili Dram Teatrı ilə sıx yaradıcılıq əlaqələri saxlayan bəstəkar bu illər ərzində "Bir gün də insan ömrüdür", "Hacı Qara", "Sizi deyib gəlmişəm", "Qarğanın iflası", "Ərsizlər və arsızlar", "Topal Teymur" və s. kimi onlarla tamaşanın bəstəkarı və musiqi tərtibatçısı olmuşdur. Onun son illərdə "Hökmdar və qızı", "Araz sahilində doğan günəş", "Koroğlunun Çənlibelə qayıdışı", "Mirzə Fətəli" kimi dram tamaşalarına yazdığı orijinal musiqilər və verdiyi musiqi tərtibatları tamaşaçıların zövqünü oxşamış və əsərlərin ideyasının açılmasında böyük rol oynamışdır.

Şəmsəddin Qasımovun Naxçıvan Dövlət Kukla Teatrındakı fəaliyyəti xüsusi ilə təqdirəlayiqdir. Belə ki, teatrın repertuarında özünə möhkəm yer tutan "Məlikməmməd", "Cik-cik xanım", "Tənbəl Əhməd", "Sirli sözlər", "Cəsur dovşan", "Dursunəli və ballıbadı" və s. kimi onlarla əsərə yazılan musiqi gənc nəslin, xüsusi ilə məktəblilərin zövqünü oxşayır. Onu da qeyd edək ki, məhz Kukla Teatrı ilə uzunmüddətli işbirliyi bəstəkarın bir çox uşaq mahnılarının yaranmasına gətirib çıxarmışdır. Belə ki, onun yazdığı "Şahinlərin marşı", "Şən nəğməmiz", "Azadlıq nəğməsi", "Biz xoşbəxt uşaqlarıq" və digər bu kimi mahnılar tezliklə nəşr olunacaq "Naxçıvan bəstəkarlarının uşaq mahnıları" adlı məcmüədə çap ediləcək.



Müəllimlik də bəstəkarıq kimi Şəmsəddin Qasımovun həyatının bir parçası, uzun illər boyu əmək qoyduğu ən sevimli fəaliyyət sahəsidir. O, fəal bəstəkarlıq işi ilə bərabər, pedaqoji fəaliyyətini Naxçıvan Dövlət Universiteti nəzdində İncəsənət fakültəsində davam etdirir. Şəmsəddin Qasımov təcrübəli, tədris prosesinin bütün incəliklərinə fikir verən, tələbkar, həm də xoş xasiyyətli bir müəllimdir. Hazırda onun yetirmələri respublikanın müxtəlif musiqi müəssisələrində çalışaraq musiqi mədəniyyətimizin inkişafına öz töhfələrini verirlər.

O, həmçinin fəal ictimai xadimdir. Muxtar Respublikada keçirilən mədəni-kütləvi tədbirlərdə Şəmsəddin Qasımovun mahnıları məktəblilərin, xor kollektivlərinin, vokal qrupların və müğənnilərin ifasında tez-tez səslənir və kollektivlərin repertuarına daxil edilir. Onun əməyi yüksək qiymətləndirilərək musiqi mədəniyyətinin inkişafındakı xidmətlərinə görə 2004-cü ildə Azərbaycan Respublikası Prezidentinin mükafatına, 2005-ci ildə isə Naxçıvan Muxtar Respublikasının əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür.

By gün ömrünün 60-cı baharını yaşayan bəstəkar yüksək peşəkarlıq prinsiplərinə sadiq qalaraq milli musiqi mədəniyyıtimizin tərəqqisi naminə yorulmadan çalışır. Biz əminik ki, yaradıcılıq həvəsi ilə bədii təcrübənin six vəhdəti hələ neçə-neçə gözəl sənət əsərləri meydana gətirəcək, Azərbaycan musiqisinin pərəstişkarlarını daha da sevindirəcəkdir. Biz bəstəkarı 60 illik yubileyi münasibətilə bir daha ürəkdən təbrik edir, ona sənət yollarında yeni-yeni zirvələr fəth etməyi arzulayırıq.

**Jalə Qulamova**
**Azərbaycan Milli Konservatoriyasının dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru**

***Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.***